Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Vətənpərvərlik - yenilməz güc, böyük qüdrət...

## O, insan hissləri içində ən müqəddəsi və ən mühümüdür

**İnsan hissləri içində ən müqəddəs, əbədi, tərəqqi və inkişafa təkan verən hisslərdən biri, bəlkə də ən mühümü vətənpərvərlikdir. Mənsub olduğu xalqın varlığı ilə fəxr etməyən, onun eşqini müqəddəs bir məşəl kimi öz qəlbində yandırmayan bir insan öz vətəndaşlıq haqqını dərk edə bilməz, ona vətənpərvər demək də gülünc olar.**

Vətənpərvərliyin dərin və tarixi kökləri vardır. Bu, insanın yurduna, xalqına, onun dilinə, yaxşı adət və ənənələrinə məhəbbətinin ifadəsi kimi meydana gəlmişdir. Vətənpərvərlik ən dərin, ən müqəddəs və ən ülvi hisslərdən, duyğulardan ibarətdir. Hər bir adamın tarixi qiyməti onun Vətənə, millətə xidməti ilə, əsl insanlıq ləyaqəti isə vətənpərvərlik hissi ilə ölçülür.

Deyilənlərə görə, qədim alban sərkərdəsi, əfsanəvi qəhrəman və cəngavər döyüşçü Cavanşir öz oğlanlarına vəsiyyət edir ki, öləndə onu sərhəddə basdırsınlar. Səbəbini soruşanda cavab verir ki, qoy düşmən torpağımızı basıb keçəndə qəbrimin ayaq altda qaldığını oğlanlarım namusuna sığışdırmayıb, torpağı düşmənlərə verməyin mümkün olmadığını dərk etsinlər.

Görkəmli şəxsiyyətlər, tarixçilər, filosoflar vətənpərvərliyi daim yüksək qiymətləndirmiş və qeyd etmişlər ki, vətənpərvərlik hər bir insanda ən yüksək əxlaqi keyfiyyət olub, bir sıra müsbət əxlaqi xüsusiyyətləri də özündə əks etdirir. Xalqımızın böyük filosofu və ədibi M.F.Axundova görə, əsl yüksək əxlaqlı, xeyirxah adam yalnız o adam hesab edilə bilər ki, o, özünün bütün hərəkət və davranışlarını əsl vətənpərvərliklə uyğunlaşdırsın. O, əsl vətənpərvəri belə qiymətləndirirdi: "Patriot – ibarətdir o kimsədən ki, vətən təəssübü üçün və millətin məhəbbəti üçün can və malını müzayiqə etməyə və öz vətəninin və millətinin mənfəəti və azadiyyəsi üçün cəfakeş ola".

Çox yerində deyilmişdir ki, insanlar arasında vətəndaşlıq hissi olmasaydı, onda yəqin ki, insan cəmiyyətini heyvan sürüsündən ayırmaq çətin olardı. Mərhum professor Z.Göyüşov isə belə yazırdı: "Hansı xalqda, hansı millətdə vətəndaşlıq hissi inkişaf etmişsə, bu, həmin xalqın, həmin millətin ümumi mənəvi tərəqqisinin göstəricisidir".

Vətəndaşlıq borcu və məsuliyyəti xalqın, ölkənin adamlarının taleyi üçün hər şeyə vətəndaşlıq gözü ilə baxmaqdan ibarətdir. Hər bir insan vətəndaşlıq borcunu başa düşməli, ən yüksək vətənpərvərlik nümunəsi göstərməli, cəmiyyətdə zidd hallara – ədalətsizliyə, haqsızlığa dözməməli, nöqsanlara qarşı barışmaz olmalıdır. Dərin ideya inamı, dönməz əqidə və yüksək prinsipiallıq kimi mənəvi sifətlər vətəndaşlıq borcunun və vətəndaşlıq fəallığının möhkəm əqidəyə çevrilməsinə şərait yaratmalıdır.

Ulu Teymurləng ləşkərini düşmən üzərinə aparanda ulusun sərhədlərində düşərgə salarmış. Hər əsgərinə bir daş gətirib bəlli yerə qoymağı əmr edərmiş. Beləcə, orduda hücumdan əvvəl daş andı mərasimini keçirərmiş. Geri dönərkən həmin yerdə yenidən ayaq saxlayarmış. Yeni əmr alarmış ordu: "Hərə öz daşını götürsün!", yerdə ancaq və ancaq şəhid əsgərlərinin daşı qalarmış... Ordu qarşısında həmin daşları qucaqlayıb hönkür-hönkür ağlarmış amansız sərkərdə. Sonra üzünü diri şəhidlərə tutarmış: "Bura yurdun ən müqəddəs yeri, şəhidlərimizdən vətən daşları qalan guşəmizdir. Buradan içəri düşmən keçməməlidir".

Son qərinənin hadisələri insanların dünyagörüşünə, mənəvi əqidəsinə böyük təsir etmişdir. İndi adamlarda mənəvi əqidənin ən zəruri əlamətləri - milli mənlik şüuru və ləyaqəti, vətəndaşlıq yetkinliyi və dözümlülüyü formalaşır, artıq onlar baş verən hadisə və dəyişikliklərə ayıq gözlə baxa bilirlər.

Əzəldən milli sifəti, insanlıq siması və torpağı olmayan müstəbad erməni millətinin mənfur niyyətlərini biz öz türk əxlaqımızla səbrimizin dərinliyində boğmaq istədik. Lakin zamanın məhvərindən çıxdığı, təlatümlər içində çırpındığı, xalqların öz müqəddəratını həll etdiyi bu mürəkkəb anlarda düçar olduğumuz bəla, düşmənin xəncər tiyəsi tək kürəyimizə vurduğu xəyanət zərbəsi bizi möhkəmcə silkələdi. Ulularımızdan əxz etdiyimiz humanizm, igidlik, mərdlik xislətimizə bir yağı nifrəti də əlavə olundu. Cürətli Vətən övladları torpaqlarımızda kök salan, onun barlı şirəsi ilə bəhrələnən çürük və üfunətli erməni toxumunu məhv etməyə qalxdılar. Böyük fransız yazıçısı Romen Rollanın ədalət naminə söylədiyi fikir çox təqdirəlayiqdir. O yazırdı ki, şərə qarşı sözün həqiqi mənasında nifrət bəsləməyən xeyri doğrudan doğruya sevə bilməz.

Azərbaycan çoxminillik tarixində miqyasına və mahiyyətinə görə çox faciəli və dəhşətli hadisələrlə üzləşibdir. Ancaq öz çirkin və cinayətkar əməlləri ilə heç bir nəticəyə nail ola bilməyən erməni xislətçiləri qədər nankor, alçaq, çörək itirən düşmən görməyib. Onlar bəşəriyyət qarşısında öz acizliyini, mənfurçuluğunu bir daha nümayiş etdirdilər, xalqın alışıb yanan azadlıq eşqini, odunu söndürə bilmədilər, əksinə, bu alovu daha da gurlaşdırdılar, alovlandırdılar, onu əbədi olaraq sönməz etdilər.

Azərbaycan xalqı hərbi, siyasi, mənəvi



gücünü, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, hətta şəhid verməsk əzmini dünyaya nümayiş etdirdi. Şəhidlərimiz ünyetməz, acı bir xatirəyə dönsələr də, onların müqəddəs ruhları, saf əməl və arzuları bizim üçün həmişə əzizdir. Bu müqəddəsliyi vətən torpağına öz qanı ilə yazmış "Azadlıq" kəlməsi də təsdiq edir. Hamımızın ziyarətgahı, and yerimiz Şəhidlər Xiyabanında uyuyan şəhidlərimiz qəhrəmanlıq, mərdlik, şərəf və ləyaqət, namus müqəddiməsi kimi tariximizin qan yaddaşında əbədi iz qoyurlar. Çünki onlar Vətən yolunda, millət yolunda, bugünkü azadlığımız və müstəqilliyimiz yolunda şəhid olublar. Bu gün Şəhidlər Xiyabanı dünya azərbaycanlılarının hər birinin içindədir.

Xalqımızın düçar olduğu uydurma Dağlıq Qarabağ problemi, Ermənistandan didərgin düşmüş 250 mindən çox azərbaycanlılar, onların başına gələn olmazın müsibətlər, 20 Yanvar, Xocalı faciələri xalqımızda bədbin əhval-ruhiyyə deyil, mətinlik, torpağa bağlılıq kimi keyfiyyətləri formalaşdırmışdır. Xalqımızın dincliyi pozulmuş, çoxlu qurbanlar verilmişdir. Lakin bu qurbanlar, anaların gözlərində qurumuş, nifrətə çevrilmiş isti yaşlar, ataları boğan qəhər, onları içində ağladan qurbanlar hədər getməmişdir. Məhz bu qurbanlar, anaların, gəlinlərin, bacıların fəryadları, ataların, oğulların, qardaşların boğaz göynədən qəhərləri torpağa, Vətənə bağlılığı daha da möhkəmləndirmiş, adamların mənəvi əqidəsinə yeni məzmun vermişdir. Gənclərimiz kişiləşmiş, məğlubedilməzliyin, dəyanətin rəmzinə, maddi və mənəvi qüvvəsinə çevrilmişdir. Əvvəllər vətən torpağına adi gözlə baxanlara torpağımızın hər bir qarışının qədrini bilmək, çox hiyləgər, kasad vicdanlı, möhkəm silahlanmış, böyük arxası olan düşmənə qarşı mübarizə əzmi əzəmətli bir qüvvəyə, Babək qeyrətinə, dözümünə, Koroğlu nərəsinə, Şah İsmayıl müdrikliyinə, Nəsimi dönməzliyinə, Nəbi qeyrətinə, Gəray, Həzi, Mehdi harayına, qəhrəmanlığına çevrilmişdir.



■ **FİZULİ İBRAHİMZADƏ**
**Tarix üzrə fəlsəfə doktoru, dosent**

Artıq hər bir kəs yaxşı başa düşür ki, vətəndaşlıq ləyaqəti doğma yurda, Ana Vətənə məhəbbətdir. Bu, Vətənin düşmənlərinə qarşı barışmaz, torpağın, millətin azadlığı və istiqlaliyyəti uğrunda mübariz olmaq deməkdir.

1793-cü ildə Fransa kralı XVI Lüdoviqin edamına bir dəqiqə qalmış, o, cəlladdan soruşur: "Laperuzdan bir xəbər yoxdur ki?" (fransız xalqının böyük vətənpərvər oğlu Laperuz məşhur dəniz səyyahlarından olmuşdur. Sakit okean ekspedisiyasına (1785–1788) ba.şçılıq edən Laperuz 1788-ci ildə öz gəmi heyəti ilə bərabər itkin düşmüşdür-müəl).

İnsan şüurunun əsrarəngizliyinə, daxili bütövlüyünə, mənəvi əqidəsinə, milli qeyrətə, bir sözlə, kişiliyinə bax. O, ölümünə bir an qalmış belə öz taleyindən yox, dünya səyahətinə çıxmış (itkin düşmüş) həmvətənlərindən, həmdillərindən çox nigaran idi.

Mənim bu günlərdə döyüş meydanında qəhrəmancasına şəhid olmuş igid eloğlumu Fransa kralı ilə müqayisə etmək fikrim yoxdur, ancaq dəfn mərasimində əsgərin atasının elə-obaya söylədiyi ürək sözlərindən bir kəlamı XVI Lüdoviqin son ifadəsi ilə müqayisə etmək istəyirəm: "Mən oğlumun 18 yaşınadək atası idim, 18 yaşından sonra, o, Vətənin övladıdır və mən evimdə böyütdüyüm 14 yaşlı kiçik oğlumu da Vətənə övlad verməyə hazıram!!..."

Dahilərdən biri yazır ki, insan əgər yalnız özü üçün zəhmət çəkirsə, o, bəlkə də məşhur alim, böyük mütəfəkkir, çox gözəl şair ola bilər; lakin heç vaxt həqiqətən yetkin və böyük insan ola bilməz. Tarix o adamları böyük adam deyə qəbul edir ki, onlar ümumi məqsəd üçün zəhmət çəkməklə özləri daha alicənab olmuşlar; təcrübə yalnız o adamları ən xoşbəxt adam kimi yüksəldir ki, onlar daha çox adama səadət gətirmişlər.

Bu gün hər kəs yaxşı bilməlidir ki, yalnız ideal planda vətənpərvər, düşmənə qarşı intiqamçı, qisasçı olmaq kifayət deyil, əməldə bu keyfiyyətlərin daşıyıcısı olmaq gərəkdir.

Vətənpərvərlik-doğulduğun, boya-başa çatdığın, çörəyini yediyin, suyunu içdiyin, havasını udduğun yerin, məkanın, torpağın, daşın abadlığı, gözəlləşməsi, çiçəklənməsi uğrunda mübarizə, gələcəyi üçün məsuliyyətdir!

Vətənpərvərlik-insanlara hörmət, insanlara xidmətdir!

Vətənpərvərlik-Vətəni sevmək, onunla fəxr etməkdir!

O, yenilməz gücdür, böyük qüdrətdir!

Vətənpərvərlik-əsarətə etiraz, zülmə nifrətdir!

Həyata sevgi, günəşə məhəbbətdir!

Sevdiyin qadına, dosta, dostluğa sədaqətdir!

Qardaşa, bacıya, xalqa, millətə qurban olmağa cəsarətdir!

İnsanın içini bəzəyən ülviyyətdir!

Ən ümdəsi ləyaqətdir vətənpərvərlik.

Ümummilli lider Heydər Əliyev demişdir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətənə, torpağa, millətə sədaqət, vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Məhz bu ideologiyanın nəticəsidir ki, xalq bu günlərdə vətənə, torpağa, millətə sədaqətini, vətən yolunda şəhidliyə hazır olmaq hisslərini bir daha nümayiş etdirdi.

Azərbaycan Prezidenti İlham Əliyev son hadisələrdə həlak olmuş şəhid ailələrinin və yaxınlarının bir qrupu ilə görüşündə demişdir: "Uşaqlar müstəqillik dövründə formalaşıblar. Onlar müstəqil Azərbaycan bayrağı altında böyüyüblər. Onlarda milli qürur hissi, milli ləyaqət hissi çox yüksəkdir. Mən həmişə demişəm ki, bizim bütün gənclərimiz vətənpərvər, Vətənə bağlı olmalıdırlar. Bax, sizin övladlarınız, yaxınlarınız o gənclərdəndir, onlar nümunədir".

Bax, budur vətənpərvərlik! Eşq olsun o xalqa, o millətə ki, bunu qoruyub saxlaya bilir!

Bəli, bu gün Azərbaycan xalqının kiçikdən böyüyədək əksəriyyəti ayağa qalxıb mənfur düşmənlərimizə qarşı Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa hazırdır. Bu müqəddəs mübarizədə Allah hamımıza yar olsun!

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*